UOT 1 (091)

# ƏBU NƏSR ƏL-FƏRABİNİN İCTİMAİ–ETİK GÖRÜŞLƏRİ

**MÜJDƏ CU MƏHBUB QULAM oğlu**
***Bakı Dövlət Universiteti***
***Mahbub.1350@yahoo.com***

*Orta əsr Şərq peripatetizminin görkəmli nümayəndələrindən biri də Əl-Fərabidir. Onun tədqiqatlarında sosial inkişafa və dövlətə dair baxışları mühüm yer tutur.*

*Oxuculara təqdim olunan bu məqalənin yazılmasında məqsəd Əl-Fərabinin nəzəri cəhətdən mühüm fəlsəfi əhəmiyyət kəsb edən sosial baxışlarını təqdim və xarakterizə etməkdir. Müəllif Əl-Fərabi irsinə müasir elmi düşüncə prizmasından, qnoseologiya nöqteyi-nəzərindən və müasir metodologiya planından qiymət vermişdir. Bu mənada məqalədə dövlətlə əlaqədar utopik ideyalar aid olan orta əsr fəlsəfi baxışları təhlil edilir.*

**Açar sözlər:** Şərq peripatetikləri, etika, əql, xoşbəxtlik, iradə, ləyaqət, şərəf, həzz

Bəşər fəlsəfəsi fikrinin, elminin və incəsənətinin yaradılmasında Orta Şərq peripatetiklərinin ideya irsi qabaqcıl yerlərdən birini tutur. Tədqiqatçılar çox haqlı olaraq onların fəlsəfi irsini bütövlükdə dünya sivilizasiya tarixinin, xüsusi halda isə dünya fəlsəfi fikrinin mühüm mərhələsi, bir növ zəruri həlqəsi hesab edirlər. Orta əsrlərın güclü fəlsəfi cərəyanının nümayəndələri olmuş əl-Kindi, əl-Fərabi, İbn-Sina, Bəhmənyar, İbn-Tüfeyl, İbn-Rüşd, Nəsirəddin Tusi və b. islam ideologiyasının şüurlara hakim kəsildiyi bir şəraitdə nəinki dünyanın rasional dərki uğrunda mübarizə missiyasını bacarılqla yerinə yetirmiş, həm də özlərinin təkrarsız və heyranedici yaradıcılıqları ilə Avropada Yeni dövr fəlsəfəsinin və təbii-elmi fikrin hazırlanmasında mühüm rol oynamışlar. Təsadüfi deyil ki, dünya fəlsəfi fikrinin görkəmli nümayəndələrindən olan F.Engels "ərəbdən əxz edilmiş azad fikirliliyi" Avropa materializminin müjdələrindən biri hesab etmişdir.

Böyük təfəkkür və dərin ensiklopedik zəka sahibi olmuş şərq peripatetiklərinin misilsiz tarixi xidməti ondadır ki, onlar qədim yunan filosoflarının zəngin və çoxtərəfli nəzəri irsini və ilk növbədə, Aristotelin fəlsəfi əsərlərini qəbul edib onları yenidən işləmək əsasında antik fəlsəfə ilə Avropa İntibahı arasında mənəvi bir körpü salmışlar. Şərq peripatetizminin bu cəhəti görkəmli rus inqilabçı demokratı A.İ.Gertsenin dilində sərrast bir ifadə ilə belə səslənmişdir: "ərəb (İbn-Rüşd nəzərdə tutulur) Aristoteli tapıb Avropaya

gətirənədək o, qədim dünyanın xarabalıqları altında çirkaba bulaşmış halda cəhalət bataqlığında uyuşmuşdur” [6, 95].

Bu sözləri eynilə antik mədəniyyət nümunələrinin yenidən həyata qaytarılmasında böyük xidmətləri olmuş orta əsr Şərq peripatetizminin digər nümayəndələrinə də aid etmək olar. Onların hər biri, həqiqətən, qədim yunan filosoflarının və birinci növbədə, Aristotelin Yaxın və Orta Şərqdə sədaqətli davamçılarına və şərhçilərinə çevrilərək öz zəmanələrində dünya fəlsəfəsinin və elmi fikrinin inkişafına güclü təkan vermişlər. Belə filosoflar içərisində əgər şərq peripatetizminin ilk böyük nümayəndəsi ərəb filosofu Yəqub əl-Kindi (800-873) olmuşdursa, bu təlimin mükəmməl sisteminin yaradıcısı türk mənşəli böyük alim Əbunəsr əl-Fərabi (874-950) olmuşdur. Şərq təfəkkür tərzində Aristoteldən sonra “ikinci müəllim” (əl-müəllim əs-sani) adını almış əl-Fərabinin zəngin elmi-nəzəri irsi bütün müsəlman ölkələrində elmi-fəlsəfi fikrin inkişafında misilsiz rol oynamış, özündən sonra gələn bütün müsəlman filosoflarının yaradıcılıq fəaliyyətinə güclü təsir göstərən nümunəvi bir paradiqmaya çevrilmişdir. Orta əsr ərəb tarixçisi Zahirəddin Beyhəddinin (1105-1169) şəhadətinə görə “qabaq ki, islam alimləri içərisində Əbunəsr Fərabidən daha fəzilətlisi olmamışdır”. Doğrudan da, öz zəmanəsinin bütün elmlərinə dərindən nüfuz etmək qüdrətinə malik olmuş bu böyük alim və filosofun yaradıcılıq diapazonu həddən ziyadə geniş olmuş, zəmanəsinin prinsipial əhəmiyyətli mürəkkəb problemləri belə onun yaradıcı təfəkkürünün tədqiqat predmetinə çevrilərək öz dövrü çərçivəsində həll edilmişdir. Bu gün bizi Fərabinin yaşayıb-yaratdığı dövrdən min illik bir zaman kəsiyi ayırsa da, bu illər ərzində müxtəlif zəmanələrdə yaşamış filosof və alimlər öz böyük sələflərinin nəzəri irsinə həmişə müraciət edərək onu müxtəlif bucaqlar altında təhlil etmişlər. Azərbaycan fəlsəfi fikir tarixinin nümayəndələri də Fərabi irsinə biganə qalmamış, onun zəngin fəlsəfi dünyagörüşünün bu və ya digər məsələsini, epizodik şəkildə olsa da, özlərinin tədqiqat obyektinə, fikir predmetinə çevirmişlər.

Əl-Fərabi müasir İran ərazisində doğulub, boya-başa çatmışdır. Buna görə də, bir İran vətəndaşı, bir türk oğlu kimi mənim Fərabi irsinə marağım və onun nəzəri irsinə müraciət etməyim heç də təsadüfi deyil. Oxucuların diqqətinə yönəltdiyim bu məqalədə mən Fərabinin nəzəri irsində özünəməxsus yer tutan etik görüşlərini tədqiq etməyi nəzərdə tutmuşam.

Şərq peripatetiklərinin, o cümlədən Fərabinin etik konsepsiyasının başlanğıc prinsiplərinin təhlilində nəzəri ilk növbədə onların etikanın vəzifəsi, məqsədi və predmeti haqqında fikirləri cəlb edir. Fərabinin sələfi olmuş ilk ərəb filosofu Əl-Kindi “Aristotelin kitablarının sayı və fəlsəfənin dərki üçün zəruri olan nədir” adlı əsərində etikanı “ruhun mənəvi keyfiyyətləri və onların idarə olunması haqqında elm” kimi mənalandırmışdır. Belə idarəetmənin məqsədi bundan ibarətdir ki, insanların davranışları xeyirxahlığa əsaslanmalı və onun tərəfindən idarə olunmalıdır [7, 44]. Əl-Kindidən fərqli olaraq Əl-Fərabi etikaya praktiki fəlsəfə (“falsafa amaliyya”), müdriklik fəlsəfəsi kimi

baxırdı. Lakin Əl-Kindi kimi Fərabi də etikanı "yüksək xeyirxahlığa və xoşbəxtliyə çatmaq yolları haqqında elm" kimi dəyərləndirirdi. Onun təbirincə etika "şəhərləri necə idarə etmək, onların çiçəklənməsinə, sakinlərinin həyat tərzinin necə yaxşılaşdırılmasına və onları xoşbəxtliyə hansı yollarla istiqamətləndirmək haqqında göstərişlər verməlidir" [1, 132]. Əl-Fərabi "Vətəndaş siyasəti" traktatında isə etikanı "xoşbəxtliyin dərk edilməsi haqqında elm" adlandırırdı [1, 121].

Orta əsr şərq peripatetiklərinin etikasında Aristotelin, qismən də Platonun fəlsəfi görüşlərinin təsiri altında formalaşmış "nəfs" haqqında təlim mühüm yer tutmuşdur. Bununla belə şərq peripatetiklərinin böyük xidməti bundadır ki, onlar antik yunan filosoflarının təlimlərinin sadəcə şərhi ilə məhdudlaşmayıb, həm də şərqdə ilk dəfə nəfs (ruh) haqqında təsəvvürlərin strukturunu işləyib hazırlamaqla onun mükəmməl sistemini yaratmışlar. Onların fikrincə nəfs, hər şeydən əvvəl, canlı orqanizmlər üçün səciyyəvi olan spesfik funksiyaların məcmusudur.

Yaxın şərq peripatetiklərinin etikasının mühüm prinsiplərinindən biri bundan ibarətdir ki, onların demək olar ki, hamısı qədim yunan filosoflarının və ilk növbədə Aristotelin ardıcılına çevrilərək insana zəkalı ictimai varlıq kimi baxmış və zəkanı özlərinin etik konsepsiyalarının nüvəsində yerləşdirmişlər.

Ərəbdilli fəlsəfədə "əql" anlayışını diferensiallaşdıraraq "nəzəri əqlə" və "əməli əqlə" ayıran ilk filosof Əl-Fərabi olmuşdur. Onun anlamında "nəzəri əql" elmi tədqiqatlardan və ya sillogizmlərdən alınmayan, insana yalnız təbiətin bəxş etdiyi qüvvə kimi mövcud olan fenomendir. Əqlin funksiyası biliyin başlanğıc nöqtəsini təşkil edən ümumi və zəruri müqəddəm şərtlər vasitəsilə səhih biliklər qazanmaqdan ibarətdir. Praktiki əql isə elə bir qüvvədir ki, insan onun vasitəsilə özü ilə ətraf cisimlər arasında yaratdığı əlaqələrə və hisslərlə qavradığı cisimlər üzərində apardığı canlı müşahidələrə söykənərək ona təsir edən əşyalardan hansını dərk etməyin vacib olduğunu, hansının isə nəzərə alına bilməyəcəyini müəyyənləşdirmək imkanı qazanır. İnsanda təcrübə hasil olanadək bu əql yalnız potensiallı zəka olaraq qalır. Praktika meydana gəldikdən sonra isə praktiki əql aktual əqlə çevrilir. İnsan şəxsi təcrübəsinin artırdıqca onun aktual əqli də yüksəlir [1, 202-207]. Qeyd edək ki, Fərabinin bu fikirləri bir çox cəhətdən Aristotelin "Nikomal etikası" və "Siyasət" əsərlərində əql haqqında təfsir etdiyi dahiyanə fikirlərlə həmahəng səslənir. Xatırladaq ki, Aristotel adları çəkilən əsərlərində ruhun zəka hissəsini "elmi", "nəzəri", "dərrakəli" və "praktiki" hissələrə ayırmışdı [3, 108].

Əl-Fərabi insanı "nəzəri yaradıcılığın ən yüksək növünün daşıyıcısı və buna görə də kimsənin ondan üstün ola bilməyəcəyi heyvan" adlandırırdı. Onun dərin inamına görə insanın zəkası, biliyi, idrakı qabiliyyəti təbii mənşəlidir. Zəkanı insan təbiətinin yeganə xassəsi hesab edən Əl-Fərabi qeyd edirdi ki, "insanın insanlıq kəsb etdiyi birinci pillə o zaman baş verir ki, onda fəaliyyətdə olan zəkaya çevrilməyə hazır forma yaranır" [2, 239].

Mənəviyyatı birbaşa insan zəkası ilə bağlı götürən Əl-Fərabi ağılsızlığı şəxsin ruhunun əxlaqi çatışmazlıqlarına başlanğıc verən xəstəlik kimi qəbul edirdi. O, yazırdı ki, ağılsız adam həmişə kinli və bədniyyət olub, yararsız məqsədlərə can atır. Lakin ruhunun xəstəliyi üzündən bütün bəd hərəkətləri ona xeyirxah əməllər kimi görünür. Bic və yalançı adam həm də kinli və qüsurlu olur. Dərrakəli adam isə məntiqi baxımdan xeyirxah olmalıdır ki, öz məqsədlərinin düzgünlüyünün ona bəxş edilmiş xeyirxahlıqla təsdiq edə bilsin [1, 100-102 ].

Qeyd edək ki, düşüncəli və zəkalı insanın xeyirxah və yüksək əxlaq sahibi olması fikri yalnız Fərabi etikasının deyil, ümumiyyətlə, bütün orta əsr şərq peripatetiklərinin etikasının başlıca leytmotivi olmuşdur. Əl-Fərabi düşüncəsinə görə, ümumiyyətlə, zəka və düşüncə sahibi olmayan bir insanın xeyirxahlığa, yüksək mənəviyyata malik ola bilməsi fikri ağlasığmazdır. Bütün şərq peripatetikləri kimi Əl-Fərabi də bu əqidədə olmuşdur ki, insanın əxlaq və xeyirxahlıq dərəcəsi onun əqli və dərakəsi ilə müəyyən olunur.

Zəmanələrinin məntiqi bilikləri ilə silahlanan, Aristotelin və digər qədim yunan filosoflarının əsərlərinə söykənən şərq peripatetikləri insanın əxlaqi davranış və hərəkətlərinin ilahi tərəfindən yaradılması ideyasını qətiyyətlə rədd etmişlər. Onlar qüdrətli insan zəkasına arxalanmaq əsasında təsdiq edirdilər ki, allah şər işlər yaratmağa qadir deyil. O, bu mövqedən çıxış edərək yazırdı: "Ölümdən sonra insanın mükafatlandırılması və yaxud cəzalandırılması çox böyük bir dəqiqliklə onun əməllərinə uyğun seçilir və Allah onları nə artıra, nə də azalda bilər" [5, 22-23]. Əl-Fərabinin əsərlərində dəfələrlə qeyd olunur ki, insanın azad iradəsinin inkar edilməsi labüdən Allahın şər qüvvə kimi təsdiqlənməsinə gətirib çıxara bilər. Əl-Fərabi əmin idi ki, insan öz hərəkət və davranışlarında xeyir və şərin, icazə verilənlə yasaq edilənin seçilməsində tam sərbəstdir. Əgər öz davranışlarının seçilməsində insan tam sərbəstliyə və muxtariyyata malik olmasaydı, onun bu və ya digər hərəkətini təqdir və ya tənqid etmək mümkün olmazdı. Əl-Fərabinin etik görüşlərinin digər bir maraqlı cəhəti də bundan ibarətdir ki, o insanın idarə azadlığını ağıl və düşüncə tərzi ilə əlaqələndirirdi "İnsan öz zəkası hüdudlarında azad və fail-muxtardır" – etikanın bu mühüm məsələsi üzrə əl-Fərabinin formalaşmış fikri məhz belə olmuşdur. Əl-Fərabi əmin idi ki, insanların iradə azadlığının, hərəkət və davranışlarının seçim müstəqilliyinin inkar edilməsi labüddən əxlaqi məsuliyyətin inkarına, mənəviyyatsızlığa, özbaşnalığa bəraət qazandırılmasına səbəb ola bilər.

Əl-Fərabi "Xoşbəxtliyə çatdıran yolun müəyyələşdirilməsi" əsərində Aristotelə istinadən "iradə" terminini sözün geniş mənasında anlayaraq onu "əqli iradə", "hissi iradə" və "sərbəst seçim" (ixtiyar) kimi üç növə ayırır. Onun fikrincə iradənin ən mühüm təzahür forması insan azadlığıdır. Insanlar öz hərəkət və davranışlarını sərbəst icra etdikdə xeyir və şəri, icazə verilənlə yasaq ediləni, gözəlliklə çirkinliyi bir-birindən daha yaxşı fərqləndirə bilirlər. Əl-Fərabi belə guman edirdi ki, insanın iradəsi, hər şeydən əvvəl, onun arzu və

istəklərində ifadə olunur. Heyvanlardan fərqli olaraq insanlarda arzu onların düşüncə tərzindən irəli gəlir. İradənin ən yüksək dərəcəsi “yalnız insana xas olan sərbəst seçimdir. İnsan onun hesabına tərifə və məzəmmətə layiq görülür, o yaxşı və pis hərəkətləri həyata keçirməklə ya tərifə, ya da cəzaya layiq görülə bilər” [1, 112-114].

Əl-Fərabi insanın iradə azadlığının eyni zamanda onun sağlam düşüncə tərzi ilə əlaqələndirirdi. Onun fikrincə insanın xoşbəxtliyi şəxsin görə biləcəyi “Xoş hərəkətlərlə” bağlıdır. Əl-Fərabi irsinin öyrənilməsi göstərir ki, bu böyük filosofun əqidəsinə görə insan yalnız o halda əsl xoşbəxtliyə nail ola bilər ki, “onun hərəkət və davranışları xoş niyyətə və azad seçimə arxalanmış olsun” [1, 7]. Bundan əlavə, insanın xoş hərəkətləri, habelə ruhunun affektlərinin yüksək səviyyədə idarə olunması təsadüfi xarakter daşımamalı, onun möhkəm inamından, sağlam düşüncə tərzindən, fikir dünyasının zənginliyindən irəli gəlməlidir. İnsan xoşbəxtliyə yalnız o zaman nail olur ki, özünün gözəl davranışlarını həyatı boyu etdiklərinin hamısından yüksək dəyərləndirir.

Əl-Fərabi yaradıcılığı üçün səciyyəvi olan cəhətlərdən biri də bundan ibarətdir ki, o insanın iradə azadlığını onun əqli ruhuna xas olan qabiliyyət hesab edirdi. Həm də Əl-Fərabinin fikrincə bu qabiliyyət birbaşa insanın idraki qabiliyyəti ilə bağlıdır. İnsanın xoşbəxtliyə çatması və bu yolda uğur qazanması onun idraki qabiliyyətindən asılı olan iradə aktıdır. İnsan yaxşı bilməlidir ki, o, bu və ya digər hərəkəti nə üçün və nəyin naminə edir. O, öz hərəkətlərinin nəticəsini irəicədən səhvsiz müəyyənləşdirməyi bacarmalıdır. Xoşbəxtliyə çatmaq üçün insana inam verən amil də elə bu olmalıdır. İnsanda isə belə bir inamı təxəyyül deyil, yalnız zəngin və hərtərəfli bilik tərbiyə edə bilər. Buradan əl-Fərabinin çıxardığı nəticə belə səsləndirilə bilər: fikri xeyirxahlıqla böyük gücə malik etik xeyirxahlıq hökmən bir-birini tamamlamalıdır [1, 315, 318].

Əl-Fərabinin etik konsepsiyasının mühüm prinsiplərindən biri də onun mənəviyyatın mənbəyi haqqında fikirləri ilə bağlıdır. Etikanın bu kardinal məsələsinin həllində əl-Fərabi rəsmi ortodoksal islam çərçivəsindən kənara çıxaraq əxlaqi keyfiyyətlərin anadangəlmə olması ideyasını qətiyyətlə təkzib etmişdir. Cəmiyyətdə islam ehkamçılarının böyük qüvvəyə çevrildyi bir şəraitdə onun bu hərəkəti irəliyə atılmış cəsarətli bir addım idi. Fərabi yazırdı: “insan anadan toxucu və ya mirzə doğulmadığı kimi, lap ilk başlanğıcdan da xeyirxah və ya qüsurlu ola bilməz” [1, 12].

Əl-Fərabi əsərlərində dəfələrlə etiraf etmişdir ki, eyni təbiətli insanlar bir-birindən tərbiyələrinə görə fərqlənə bilərlər. Başqa sözlə, insanlar malik olduqları bütün yaxşı və pis əxlaqi keyfiyyətləri ancaq tərbiyə prosesində qazanırlar. İnsanlar müxtəlif və ya eyni tərzdə tərbiyə oluna bilərlər. Fərabiyə görə insanlar anadan hazır peşə seçimi ilə doğulmadıqları kimi, dünyaya hazır əxlaqi keyfiyyətlərlə də gəlmirlər.

Məlumdur ki, orta əsrlər şərq peripatetizminin, o cümlədən bu ideya istiqamətinin görkəmli nümayəndəsi olan Əl-Fərabinin etik konsepsiyasının

nüvəsini “ xoşbəxtlik” kateqoriyası təşkil etmişdir. Xoşbəxtlik ideyası insan həyatının məqsədi kimi Əl-Fərabi yaradıcılığından qırmızı xəttlə keçərək onun bütün etikasına nüfuz edir. Bu isə təsadüfi olmamışdır, belə ki, şərq peripatetiklərinin fəaliyyət göstərdiyi orta əsrlərdə xoşbəxtlik, onun təbiəti, xoşbəxtliyə nail olmağın yolları və vasitələri məsələsi yalnız etikanın deyil, bütövlükdə bütün fəlsəfi sistemin mühüm problemlərindən birinə çevrilmişdir. Bu dövrdə müxtəlif fəlsəfi cərəyanların nümayəndələrinin dünyagörüşünün mahiyyəti onların məhz xoşbəxtlik probleminə münasibətində açıqlanmışdır. Məlumdur ki, bu dövrdə ortodoksal insanın bütün rəsmi nümayəndələri xoşbəxtliyin qazanılmasını insanın axirət dünyasına qovuşması ilə bağlayırdılar. Bu baxımdan müqəddəs “Qurani-Kərim”in surələrindən biri belə səslənir: “Yer həyatı oyun və əyləncədən başqa bir şey deyil, gələcək sığınacaq isə ancaq allahısevərlər üçündür”. İslam ardıcılları təsdiq edirlər ki, insanlar transendental təbiətli xoşbəxtliyə yalnız cənnətdə nail ola bilərlər. Şərq peripatetikləri Quranın bu ehkamına qarşı açıq çıxış etməyə cəsarət etməsələr də, onların fəlsəfi və etik traktatlarının sistemli təhlili şübhə yeri qoymur ki, onların demək olar ki, hamısı xoşbəxtliyi ancaq yer mövcudluğu ilə bağlayırdılar. Həyatın başa düşülməsinin evdomonist prinsipi bütün orta əsr şərq peripatetiklərinin yaradıcılığı üçün səciyyəvi hal olmuşdur. Yer xoşbəxtliyi və onun əldə edilməsi yolları onların etik görüşlərinin mühüm tərkib hissəsi, ictimai-siyasi, fəlsəfi və etik əsərlərinin mərkəzi mövzularından biri olmuşdur. Bu baxımdan Əl-Fərabinin “Xoşbəxtliyə aparan yol”, “Vətəndaş siyasəti”, “Dövlət xadiminin aforizmləri”, “Xoşbəxtliyə nail olunması” və s. əsərlərində xoşbəxtlik kateqoriyasının təhlilinə xüsusi və geniş yer ayrılması heç də təsadüfi olmamışdır. Daha bir diqqətçəkən məqam ondan ibarətdir ki, Əl-Fərabi xoşbəxtlik kateqoriyasına hər bir insanın təbii olaraq can atdığı kamilləşmə kateqoriyası ilə üzvi əlaqədə baxmışdır. Onun təbirincə xoşbəxtlik elə bir nemətdir ki, “hər bir insan ona nail olmaq eşqilə yaşayır”. Əl-Fərabi yazırdı: “İnsan mövcudluğunun məqsədi ali xoşbəxtliyə çatmaq olduğundan həqiqətin nə olmasını bilmək, onu öz məqsədinə çevirmək ona doğru getmək lazımdır. İnsan həm də bilməlidir ki, xoşbəxtliyə qovuşmaq üçün o, nə etməlidir” [1, 121]. Əl-Fərabi “Xoşbəxtliyə aparan yol” traktatında isə yazırdı ki, “Xoşbəxlik – hər bir insanın can atdığı məqsəddir” [1, 3]. Daha sonra, Əl-Fərabi xoşbəxtliyi ali nemət saydığından ona nemətlə qarşılıqlı əlaqədə baxırdı.

Əl-Fərabinin interpretasiyasında xoşbəxtlik həmçinin ən mükəmməl məqsəd elan edilir: “xoşbəxtlik nemətlər içərisində ən yüksək nemət, əşyalar içərisində ən müqəddəs məqsəddir”. Fərabi yuxarıda adları çəkilən əsərlərində dəfələrlə qeyd edir ki, insanlar xoşbəxtliyə yalnız bilik və fəaliyyət vasitəsilə nail ola bilərlər.

Əl-Fərabinin şəhadətinə görə insanların xoşbəxtlik haqqında təsəvvürləri müxtəlifdir. Xoşbəxtliyin anlam tərzi insanların xarakterindən və həyat təzzindən asılıdır. Xoşbəxtliyə münasibətdə Demokritin, Platonun, Aristotelin fikirlərinə şərik çıxan Əl-Fərabi yazırdı ki, “hər bir insan xoşbəxtliyi özü

təsəvvür etdiyi kimi qəbul edir. Bəzi adamlar xoşbəxtliyi var-dövlətdə, bəziləri isə başqa bir şeydə görsələr də, lakin hər birisi düşünür ki, mütləq xoşbəxtlik haqqında yalnız onun təsəvvürü mövcud təsəvvürlərin ən mükəmməlidir" [1,5].

Qədim yunan mütəfəkkirləri kimi Əl-Fərabi də bu əqidədə olmuşdur ki, xoşbəxtlik insana bəxş edilmiş hədiyyə deyil, özünün qazanmış olduğu mənəvi kefiyyətdir. Xoşbəxtlik isə bilik və fəaliyyətin gedişində qazanılır. Bu fikir Əl-Fərabinin bütün sosial-etik traktatlarından qırmızı xəttlə keçir. O, xoşbəxtliyin üsul varlığından danışdıqda ilk növbədə insanın bilik və fəaliyyətini nəzərdə tutur. Əl-Fərabiyə görə insanı xoşbəxtliyə aparan yol düzxətli və asan olmayıb, çətin və girintili-çıxıntılıdır. Bu yolda insan xoşbəxtliyə birdən-birə deyil, yalnız nəzərə alınması vacib olan bir sıra amillərin köməyi ilə nail olur. Əl-Fərabi belə amillərdən üçünə xüsusi üstünlük verirdi: birincisi, insanın öz bədən orqanlarından istifadə edilməsi, məsələn, oturub-qalxması, cisimləri görməsi, səsləri eşitməsi üçün istifadə etdiyi fəaliyyət; ikincisi, ruhun affektləri, məsələn, ehtiras, ləzzət, sevinc, qəzəb, qorxu, məhəbbət, kədər, qısqanclıq və s.; üçüncüsü, sağlam düşüncə. Bu sonuncu keyfiyyət insanda ya bütün ömrü boyu, ya da müvəqqəti təzahür edir.

Əl-Fərabiyə görə insanın xoşbəxtliyə çatmasının mühüm vasitələrindən biri də onun səmərəli fəaliyyətidir. Həm də, bu fəaliyyət, əvvala xoş iradəyə və azad seçimə əsaslanmalı, ikincisi, o təsadüfi və müvəqəti olmayıb, bütün həyatı boyu insanı müşayiət etməlidir.

Əl-Fərabi yaradıcılığının belə bir cəhəti də diqqət çəkir ki, insanı xoşbəxtliyə çatdıran amillərin hər üçü – fəaliyyət, ruhun affektləri, sağlam düşüncə - bir-birinə uyğun olmalı, bir-birini qarşılıqlı tamamlayaraq ümumi harmoniya yaratmalıdır. Əks halda insan gec-tez bədbəxtliklə üzləşə bilər. O, yazırdı: "İnsana o zaman bədbəxtlik üz verir ki, onun fəaliyyəti, ruhunun affektləri və sağlam düşüncəsi bir araya sığmır" [1, 25].

Əl-Fərabinin yaradıcılığında xoşbəxtlik kateqoriyası həzz anlayışı ilə də əlaqələndirilir, həzz və ləzzət xoşbəxtliyin tərkib hissəsi hesab edilir. Xoşbəxtliyin ayrılmaz elementi olmaq etibarilə ləzzət insanın mühüm məqsədinə çevrilə bilir. O, bu münasibətlə yazırdı: "Biz elə düşünürük ki, ixtiyari fəaliyyətdə və işdə ləzzət məqsədə çevrilir və biz bütün fəaliyyətimizlə buna can atırıq" [1, 27]. Əl-Fərabi xoşbəxtliyə nail olmaqda hissi-ləzzətə mühüm əhəmiyyət versə də, dəfələrlə qeyd edir ki, hissi-ləzzət heç bir halda həqiqi xoşbəxtliyi təmin edə bilməz, belə ki, bunun üçün o, sadəcə kifayət deyil, insan xoşbəxtliyə ancaq idrak, anlaşma və biliklə bağlı həzz vasitəsilə nail ola bilər.

Əl-Fərabiyə görə insanın xoşbəxtlik və ağıl dərəcəsi, hər şeydən əvvəl, onun həzzi nə dərəcədə düzgün seçməsindən asılıdır. Həzzi sərbəst seçməyi bacarmayan, öz hərəkətlərində qətiyyətsizliyə yol verən adam azad insan sayıla bilməz, həmin adam sadəcə quldur, fərqinə varmadan hər cür həzz arxasınca qaçan adam isə əslində insan adına layiq olmayıb, heyvanabənzər bir şeydir.

Əl-Fərabi "Xoşbəxtliyə aparan yol" traktatında bu məsələ üzərində xüsusi dayanaraq ona geniş şərh verir.

Əl-Fərabinin etik konsepsiyasında özünə geniş yer almış məsələlərdən bir də iradə azadlığı məsələsidir. Onun iradə azadlığına verdiyi xarakteristika belə səslənir: "İradə, hər şeydən əvvəl, duyğulardan doğan arzudur. Arzu ruhun cəhd göstərən hissəsinə, qavrayış isə hissələrə aiddir və daha sonra ruhun təxəyyül hissəsi və təxəyyülün hesabına insan arzusu meydana gəlir. Bununla da insanda birinci iradədən sonra ikinci iradə formalaşır" [1, 28]. Fərabi iradənin üçüncü formasını insanın fikri qabiliyyəti ilə bağlayıb, insanın həqiqi arzusu və bu arzunun mənbəyi adlandırır. Bu baxımdan Əl-Fərabi xeyir və şər kateqoriyalarını təhlil edərək onların lakonik xarakteristikasını verir. O, yazır: "Xoşbəxtlik mütləq nemətdir. Xoşbəxtliyin əldə edilməsi üçün zəruri olan nə varsa, hamısı xeyirdir. Xoşbəxtliyə çatmağa mane olan nə varsa, hamısı mütləq şərdir. Xeyir xoşbəxtliyə çatmaq üçün faydalıdır... Şər isə xoşbəxtliyə çatmağa əngəl törədir" [1, 113-114].

Əl-Fərabiyə görə xoşbəxtlikdən kənarda nə xeyir, nə də şər vardır. "Dövlət xadiminin aforizmləri" traktatında o, xeyir və şər haqqında mülahizələrini belə səsləndirir: "Şər iki formada mövcuddur: birincisi, xoşbəxtliyə əks olan bədbəxtlik formasında və ikincisi, insana bədbəxtlik gətirmək xassəsinə malik olan hər şey formasında. Bu iki şər qüvvəyə qarşı iki xeyir qüvvə durur: birincisi, xoşbəxtlik, ikincisi, xoşbəxtliyə çatmağa fayda verə biləcək hər şey" [1, 236].

Orta əsrlərin şərq peripatetiklərinin etikasında ləyaqət haqqında təlim də mərkəzi yerlərdən birini tutur. Əl-Kindi, Əl-Fərabi, İbn-Sina, Bəhmənyar, Nəsrəddin Tusi və digər şərq peripatetikləri ləyaqət anlayışına zəka və xoşbəxtlik anlayışları ilə sıx əlaqədə baxmışlar. Əl-Fərabi ləyaqətə xoşbəxtliyə çatmağın mühüm vasitəsi kimi baxır və inanırdı ki, ağıl və xoşbəxtlik insana yuxarıdan bəxş edilmiş nemət olmayıb, onun bütün həyatı boyu qazanılan ali keyfiyyətləridir. Əl-Fərabi insanı xoşbəxtliyə çatdıran xoş xasiyyəti və müsbət vərdişləri onun ləyaqətləri sırasına aid edirdi. Onun təbirincə rasional və etik, ağıl və xoş xasiyyət bir-birindən ayrılmaz keyfiyyətlərdir. Qeyd edək ki, Əl-Fərabinin ləyaqət anlayışına diqqəti təsadüfi olmamışdır.

Onun fikir dünyasında belə bir inam kök salmışdır ki, yalnız ləyaqətin nə olduğunu bilən adam həqiqi xoşbəxtliyə qovuşa bilər. Ən doğru bilik isə ləyaqət haqqında bilikdir, xeyiri şərdən, ləyaqəti qüsurdan ayırmağa imkan verən bilikdir. O, "İntellekt sözünün mənası haqqında" traktatında yazırdı ki, "insanlar o şəxsi ağıllı adlandırırlar ki, onlar ləyaqətlidir, xeyri seçməyi, şərdən uzaqlaşmağı bacarırlar" [2, 19-20].

Əl-Fərabi məhşur "Xoşbəxtliyə aparan yol", "Vətəndaş siyasəti", "Xoşbəxtliyə nail olunması", "Dövlət xadiminin aforizmləri" traktatlarında ləyaqətdən xoşbəxtliyə çatmağın mühüm vasitəsi kimi bəhs etmişdir. Onun fikrincə ləyaqətli olmadan xoşbəxtliyə çatmaq ağlasığmazdır. Xoşbəxtliyə aparan yol ləyaqətdən keçir. Əl-Fərabinin açıqlamasına görə ləyaqət insanın böyük önəm daşıyan mənəvi keyfiyyətlərindən biridir. O, ləyaqət anlayışına

münasibətini belə səsləndirir: "İnsanı xeyir işə və gözəl fəaliyyətə təhrik edən mənəvi keyfiyyət ləyaqət, naqis işə və yaramaz hərəkətə təhrik edən cəhətlər isə alçaqlıq və qüsurdur" [2, 227].

Ləyaqətə münasibətdə bu mövqedən çıxış edən Əl-Fərabiyə görə ləyaqət insana özünün ən başlıca həyat məqsədinə - ən yüksək xoşbəxtliyə çatması üçün lazımdır.

Eyniylə "birinci müəllim" Aristotel kimi Əl-Fərabi də ləyaqəti 4 növə bölür: "nəzəri ləyaqət", "fikri ləyaqət", "etik ləyaqət", "praktiki incəsənət" [2, 17]. Aristotelin davamçısı və fikirlərinin şərhcisi olmaq etibarilə Fərabi ləyaqətin strukturu məsələsindən də yan ötməyərək onu aşağıdakı növlərə ayırırdı: intellektual ləyaqət, fikri ləyaqət, nəzəri ləyaqət, praktiki ləyaqət və etik ləyaqət Fərabi yaradıcılığı ilə bağlı belə bir cəhəti də qeyd edək ki, ərəbdilli şərq peripatetikləri arasında insani ləyaqətlərin təsnifatını vermək şərqdə ilk dəfə məhz bu böyük filosofa nəsib olunmuşdur. Öz təsnifatında müəyyən mülahizələrə söykənən Fərabi rəngarəng ləyaqətlər dəstini iki böyük qrupa ayırmışdır: intellektual ləyaqətlər (fadail kutkiya) və etik ləyaqətlər (fadail xulgiya). O, müdrüklüyü, intellekti, ağılı, nüfuz etmə qabiliyyətini intellektual ləyaqətlərə, mərdliyi, mülayimliyi, səxavəti, ədaləti isə etik ləyaqətlər qrupuna aid etmişdir. "Dövlət xadiminin aforizmləri" traktatında əl-Fərabi ləyaqəti ruh haqqında təlimlə əlaqələndirərək yazırdı: "Ləyaqətlər iki növ olur: etik və intellektual. İntellektual ləyaqətlər ruhun ağıl hissəsinin ləyaqətlərini, o cümlədən müdrikliyi, əqli, fərasəti, əqli kəskinliyi, başa düşməni, etik ləyaqətlər isə ruhun nəyə isə cəhd göstərən hissəsi olub, həlimliyi, cəsarəti, səxavəti, ədaləti ehtiva edir" [2, 179].

Əl-Fərabinin əsərlərində ləyaqət hissi insan ağlı ilə sıx əlaqələndirilir. Ləyaqətlərin təsnifatını verdikdən sonra Əl-Fərabi etik ləyaqətlər üzərində xüsusi dayanır, belə ki, onun fikrincə etik növdən olan ləyaqətlər formaca daha mükəmməl olub, insan həyatında intellektual ləyaqətlərə nisbətən daha böyük qüvvə nümayiş etdirirlər. Bütün ləyaqətlərin məcmusu olan etik ləyaqətlərdə digər ləyaqətlərin təsiri aşkar hiss olunur [2, 312].

Əl-Fərabi etikasının ən böyük nailiyyəti onun ləyaqətlərin mənbəyini və mənşəyini aşkara çıxarması olmuşdur. Mühüm dünyagörüşü və evristik əhəmiyyət kəsb edən bu məsələ hələ qədim yunan fəlsəfəsində uzun müddət kəsgin mübahisə predmetinə çevrilərək, Sokrat, Platon, Aristotel, Demokrit, Epikur kimi böyük təfəkkür sahiblərinin düşüncə tərzini həyacanlandırmış və onların hər biri öz prizmasından bu məsələyə müstəqil münasibətlərini bildirmişlər. Şərq peripatetizmində isə məhz Əl-Fərabi ilk dəfə mənəvi keyfiyyətlərin anadangəlmə olması haqqında fəlsəfədə qərarlaşmış mövcud fikirlərin əleyhinə çıxaraq bilik kimi ləyaqətlərin də anadangəlmə olmadığını, insanların real həyatda qazandıqları keyfiyyətlər olduğunu sübut etmişdir.

Əl-Fərabinin mühüm nəticələrindən biri də bundan ibarətdir ki, etik ləyaqətlərin qazanılması prossesi eyni zamanda insan mənəviyyatının təkmilləşməsi prosesidir. Onun qəti inamına görə insan öz şəxsi səyləri

nəticəsində bir sıra zəruri ləyaqətlərə yiyələnib, bununla da mənəvi kamilləşməyə nail ola bilər. Bu işdə sözsüz ki, vərdişin də böyük əhəmiyyəti vardır. Bu halda böyük filosof belə bir əminlik sərgiləyir ki, vərdişin köməyi ilə insan hər cür ləyaqəti və qüsuru özünə əks olan halla əvəz edə bilər. Əl-Fərabinin ləyaqətlər haqqında təlimində "ölçü" məsələsinə də geniş yer ayrılır.

Fərabinin etik konsepsiyasında ədalət konsepsiyası da özünəlayiqli yer alıb. Digər peripatetiklər kimi Fərabi də ədalət anlayışına geniş mənada baxaraq onu insanların sosial həyatının əsası hesab etmişdir. Əl-Fərabi ictimai münasibətlər anlayışının mənasını sezərək insanların robinzoncasına tənhalıqda, bir-biri ilə ünsiyyətdə olmadan yaşaya biləcəyi fikrini qəbul etməmişdir. İnsanların ədalət prinsipindən istifadə etmədən birgə yaşayış qura biləcəyi fikrini ağlasığmaz adlandıran Əl-Fərabi "Vətəndaş siyasəti" traktatında yazmışdır ki, "insan canlıların o tipinə mənsubdur ki, onlar zəruri işlərdə ən yüksək kamilliyə yalnız o halda nail ola bilər ki, bir çox insanları birgə yaşamaq üçün birləşdirə bilsinlər" [2, 108].

"Dövlət xadimlərinin aforizmləri" əsərində bir neçə aforizm vasitəsilə ədalət anlayışına münasibətini ifadə edən Əl-Fərabi ona ictimai həyatın asılı olduğu ümumi nemətlərin insanlar arasında bölüşdürülməsi baxımından yanaşaraq onu dörd əsas etik ləyaqətə ayırır. Onun fikrincə ümumi nemətlərin ədalətli bölgüsü reallaşmadan nə sosial həyat, nə də insanların birgə yaşayış tərzi qərarlaşa bilməz. Bu münasibətlə o, yazırdı: "Ədalət, hər şeydən əvvəl, bütün şəhər adamlarının birgə istehsal etdiyi ümumi nemətlərin bölüşdürülməsi və daha sonra onlar arasında aparılmış bölgünün qorunub saxlanılmasıdır. Bu nemətlərin sırasına firavanlıq, var-dövlət, ehtiram, vəziyyət və digərləri aiddir. Bu nemətlərdən şəhərlilərin (cəmiyyət üzvlərinin) hər birinin payına müəyyən qədər düşməlidir, ayrılmış payın lazım olduğundan az və ya çox olması artıq ədalətsizlikdir" [2, 224].

Əl-Fərabi insanda ədalət hissinin yaranmasına onun kamilləşməsi ilə sıx əlaqədə baxırdı. Onun fikrincə, ədalət və kamilləşmə qarşılıqlı şərtlənib, bir-birindən təcrid edilmiş halda mövcud ola bilməz. İnsan ən yüksək kamilləşmə naminə yaşayır, kamilləşmə insanın ali və son məqsədidir. Kamilləşməsiz xoşbəxtlik yoxdur.

Əl-Fərabi etikasının ən böyük nailiyyəti ondan ibarətdir ki, burada insanın kamilləşməsi onun mənəviyyatının kamillşəməsi ilə eyniləşdirilir. Bu etikanın digər bir səciyyəvi cəhəti isə belə bir həqiqətin qəbul edilməsindən ibarətdir ki, insan harmoniyaya, ədalətə, kamilləşməyə yalnız cəmiyyətdə, ictimai münasibətlər sistemində nail ola bilər. Tənhalıqda nə harmoniya, nə ədalət, nə də kamilləşmə baş verə bilməz. Buna görə də, "hər bir insan onun nail ola biləcəyi kamilləşməyə yiyələnmək üçün digər insanların əhatəsində olmalı, onlarla birləşməyi bacarmalıdır.

Qeyd edək ki, yalnız ədalətin özü deyil, onun mənbəyi məsələsi də Fərabi fikrinin məşğuliyyəti olmuşdur. ədalət hissi nəyə əsaslanmalıdır? Sualını belə cavablandırarkən Əl-Fərabi əsasən Platonun fikrinə söykənmişdir: Platon kimi

o, da belə düşünmüşdür ki, insanları ədalətə sövq edən cəhət məhəbbətdir. Ədalət məhz məhəbbətdən qaynaqlanır. Əl-Fərabi məhəbbəti ədalətin əsası elan etsə də, Platondan fərqli olaraq bu qənaətə gəlmişdir ki, ədalət məsələsinə fərdi mənafelərdən, yəni ayrı-ayrı insanların mənafelərindən daha yüksəkdə duran ictimai mənafeyi nəzərə almaq lazımdır. Əl-Fərabiyə görə ədalət insanı yüksəldərək ona mələk gözəlliyi bəxş etdiyi halda, özündə hər cür eybəcərlikləri və yaramazlıqları ehtiva edən ədalətsizlik də onu aşağılayaraq kəskin tənqid hədəfinə çevirir. Ədalətsizlik insanın adi qüsuru olmayıb, onun məninin cılızlığından, mənəvi yoxsulluğundan xəbər verən bütün qüsurlarının məcmusudur. Ədalətsizlik haqqında Əl-Fərabinin son qərarı belə olmuşdur: ədalətsizlik insanı insanlıqdan məhrum edən alçaqlıq, rəzalət və rəzillikdən başqa bir şey deyildir.

## ƏDƏBİYYAT


1. Аль-Фараби. Социально-этические трактаты. Алма-Ата: Наука 1973, 450 с.
2. Аль-Фараби. Философские трактаты. Алма-Ата: Наука, 1970, 628 с.
3. Аристотель. Анкомаова этика. СПБ, 1908, 2л. IV.
4. Аристотель. Метафизика. Баку: Mütərcim, 2008, 384 с.
5. Бертельс Е.Э. Избранные труды. Суфизм и суфийская литература. М: Знание, 1965, 524 с.
6. Герцен А.И. Писмо об изучении природы. М: Госполитиздат, 1944, 200 с.
7. Избранные произведения мыслителей стран Ближнего и Среднего Востока. М.: Соцэктиз, 196, 629 с.
8. İmanov H., Əhədov A. Orta əsr islam şərqində fəlsəfi fikir. Bakı: BDU, 1998, 192 s.
9. Məmmədov Zakir. Azərbaycan fəlsəfi tarixi. Bakı: İrşad, 1994, 304 s.
10. Расиковский Е.В. Науковедение и Восток. М.: Наука, 1980, 464 с.
11. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı: BDU, 1999, 304 s.


## ОБЩЕСТВЕННО-ЭТИЧЕСКИЕ ВЗГЛЯДЫ АБУ-НАСЫРА АЛ-ФАРАБИ


**М.Г.МУЙДАЧУ**


## РЕЗЮМЕ


Одной из наиболее представительной фигур средневековой исламской философии является Абу-Насыра ал-Фараби (873-950). Предъявляемая вниманию читателей статья показывает высокое творческое наследие известного мыслителя Абу-Насыра ал-Фараби. В статье анализируется этические взгляды его творчества, определяется категории этической концепции такие, как жажда, ум, счастье, воля, свобода воли, удовольствие и т.д., проводится логико-гносеологический анализ указанных категорий.



**Ключевые слова:** Восточный перипатетизм, этика, ум, счастье, воля, жажда, достоинства, честь, удовольствие

**ABU-NASYRA AL-FARABI'S SOCIAL-AETHETICAL VIEWS**

**M.G.MUYDACHU**

**SUMMARY**

One of the most representative figures of medieval Islamic philosophy is Abu-Nasyra al-Farabi (873-950). The present paper shows a high creative heritage of the known thinker Abu-Nasyra al-Farabi. The article analyzes ethical views of his creativity, defines categories of the ethical concept such as thirst, mind, happiness, will, free will, pleasure etc., and carries out a logical-gnoseological analysis of the specified categories.

**Key words:** Eastern peripatetizm, ethics, mind, happiness, will, thirst, advantages, honor, pleasure